# ÜMUMTƏHSIL MƏKTƏBLƏRINDƏ ƏDƏBIYYATDAN TƏLIM MATERIALLARI ARASINDA MIR CƏLALIN YARADICILIQ NÜMUNƏLƏRININ YERI

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mir Cəlal Paşayevin Azərbaycan nəsrinin inkişafında xüsusi rolu olmuşdur. O da məlumdur ki, onun ədəbi fəaliyyəti təkcə yazıçılıqla məhdudlaşmır. O, məşhur ədəbiyyatşünas-alim, mahir pedaqoq idi. Bu fəaliyyət sahələrinin hər birində Mir Cəlal müəllimin xüsusi yeri var.

Mir Cəlal Azərbaycan nasirləri arasında ən çox, həm də maraqla, sevilə-sevilə oxunan yazıçıdır. O, "Dirilən adam", "Gözün aydın", "Açıq kitab", "Yolumuz hayanadır", "Təzə şəhər", "Yaşıdlarım", "Bir gəncin manifesti" kimi irihəcmli əsərlərin və çoxsaylı kiçik hekayələrin müəllifidir. Mir Cəlalın bədii yaradıcılığı özünəməxsusluğu ilə fərqlənir. Mövzu müasirliyi, məzmun məzəliliyi, dil-üslub sadəliyi, fikir aydınlığı, süjet konkretliyi məcazlar sistemindən, dilin bədii imkanlarından yerliyerində istifadə Mir Cəlal nəsrinin bədii keyfiyyətlərindəndir. Bunun nəticəsidir ki, Mir Cəlalın əsərləri müxtəlif səviyyəli oxucular tərəfindən yaxşı qarşılanır, maraqla oxunur, asan başa düşülür və düzgün tərbiyəvi nəticə çıxarılır. Hər yazıçıya nəsib olmayan bu keyfiyyətlər Mir Cəlal Paşayevin əsərlərindən təlim materialı kimi istifadə etməyə geniş imkan verir. Buna görədir ki, keçən əsrin 30-40-cı illərindən başlayaraq Azərbaycan ümumtəhsil məktəblərinin ayrı-ayrı siniflərində Mir Cəlalın yaradıcılıq nümunələri təlim materialı kimi proqrama daxil edilir, onların öyrədilməsi üçün ayrı-ayrı dövrlərdə məktəblərin istifadəsində olan Ədəbiyyat proqramlarına ötəri nəzər salmaq lazım gəlir. 1942-ci ildə Azərnəşr tərəfindən çap edilən "Orta məktəb proqramları"nda (X sinif) deyilir:



*Mir Cəlal (arxada soldan 3-cü) qələm dostları ilə Natəvan adına klubda, 1959*

"Mir Cəlal Paşayevin həyat və yaradıcılığı, ilk oçerk və hekayələri. Köhnə məişət və adət qalıqlarını öz hekayələrində ifşa etməsi. Mir Cəlalın hekayələrində yumorun dərinliyi və səmimiliyi. "Bostan oğrusu" kimi hekayələrində C.Məmmədquluzadə, Ə.Haqverdiyev stilinin davamçısı kimi.

"Dirilən adam" romanının məzmunu. Revalision fəhlə obrazları...

Mir Cəlalın dilindəki təbiilik, sadəlik və özünəməxsus səmimilik. "Bir gəncin manifesti" povestinin qısa məzmunu, ideyası. Mir Cəlalın kiçik hekayələrdəki böyük məharəti.

Böyük Vətən müharibəsi temasında yazdığı oçerk və hekayələrinin dərin tərbiyəvi və bədii qiymətə malik olması".

Maraqlı cəhət kimi qeyd etmək lazımdır ki, Mir Cəlalın yaradıcılıq nümunələri təkcə bir sinifdə (X) deyil, ümumtəhsil məktəblərinin ayrı-ayrı siniflərində təlim materialı kimi proqramda öz əksini tapır. Materialın seçilməsində bu və ya digər sinifdə oxuyan şagirdlərin yaş və anlamaq səviyyəsi həmişə diqqət mərkəzində saxlanılır. Yazıçının yaradıcılığı zənginləşdikcə, onun əsərlərinin proqrama daxil edilərək gənc nəslə çatdırılması da ön plana çəkilmişdir. Məsələn, yenə də 1952-ci ildə Azərnəşr tərəfindən çap olunan "Azərbaycan dili və ədəbi qiraət" proqramında V sinifdə Mir Cəlalın yaradıcılığında "Bahar" adlı parça verilir və onun üzərində iş aparmaq üçün aşağıdakı tələblər irəli sürülür:

"Bahar" müəllifin "Bir gəncin manifesti" povestindən bir parçadır. Baharın faciəli ölümünün təsviri. Köhnə dünyanın yoxsullara, uşaqlara qarşı amansızlığı".

Yazıçının bu əsəri 50-60-cı illərdə ayrı-ayrı siniflərdə (V-VII) müvəffəqiyyətlə təlim edilmişdir. Bu əsərin onilliklər boyu bu və ya digər siniflərdə təlim materialı kimi proqrama daxil edilməsi onun məktəblilər tərəfindən maraqla oxunması və onların mənəvi aləminə müsbət təsirinin nəticəsidir. Lakin həmin əsərin bu və ya digər sinifdə təlim materialı kimi verilməsində irəli sürülən tələblər sinifdə oxuyan şagirdlərin səviyyəsi baxımından dəqiqləşdirilir. Məsələn, 1967-ci ildə nəşr olunan "Azərbaycan dili və ədəbiyyat" proqramında həmin əsərin VII sinifdə öyrədilməsi tövsiyə edilir və ona aşağıdakı tələblər verilir: "Bahar" ("Bir gəncin manifesti" povestindən bir parça). Baharın faciəli ölümünün bədii təsviri. Bu parçada inqilabdan əvvəl zəhmətkeş uşaqların ağır həyatının təsvir olunması. Bahar obrazının qısaca səciyyələndirilməsi. Əsərin dili. Bədii təsvirlər. Uşaqların indiki xoşbəxt həyatı haqqında müsahibə".

Keçən əsrin 60-cı illərində(1960, 1963, 1964, 1965, 1966, 1967) çap olunan ədəbiyyat proqramlarında yazıçının "Bir gəncin manifesti" əsərindən verilən "Bahar" hekayəsi ilə yanaşı, onun "Badam ağacları" adlı hekayəsinin öyrədilməsi də nəzərdə tutulmuş və ona aşağıdakı tələblər verilmişdir:

"İran kəndlisinin ağır vəziyyətinin təsviri. Badam ağaclarının qırılmasının səbəbləri. İranda ağalıq edən Amerika imperializminin ifşası. Yadelli ağaların İrandakı vəhşiliyin təsviri".

70-80-ci illərdə yazıçının "İki rəssam" əsəri IV sinifdə, "Göylər adamı" hekayəsi isə V sinifdə tədris olunmuşdur. Bu hekayələr olduqca tərbiyəvi xarakter daşıyır və şagirdlərin marağına səbəb olur. Bu baxımdan yazıçının "İki rəssam" hekayəsindən bəzi detallara nəzər salmaq yerinə düşər.

Mir Cəlal dilinin zərifliyini, şirinliyini, incəliyini, duzluluğunu, təsirliliyini, emosiohallığını bu hekayədə, xüsusilə və ümumiyyətlə, yaradıcılığında duymamaq mümkün deyil. Bütün bu detallar şagirdlərin dərin marağına səbəb olur, əsərlərini sevə-sevə oxuyurlar.

Əsərdə maraqlı bir əhvalat danışılır. Yazıçı sənətin incəliyinə tamaşaçıların diqqətini cəlb etmək və sənətin qədir-qiymətini bilmək üçün iki rəssamı qarşılaşdırır. Aydın olur ki, iki görkəmli sənətkarın (rəssamın) heç biri birinciliyi əldən vermək istəmir. Onlar öz hünərlərini göstərməli, kimin daha üstün olduğunu nümayiş etdirməlidir.

"Sözdə hünərdən dəm vurmaq asandı, ancaq ağıllı adamlar buna inanmazlar. Həqiqi hünər sahibləri heç vaxt özlərini tərifləməzlər, hünərlərini öz əməlləri ilə isbat edərlər. Rəssamlar da bu yolu tutdular. Onlar yarışmalı oldular. Hərəsi gözəl bir mənzərə şəkli çəkəcək və kimin üstün olduğuna hökm verəcəkdi.

*(ardı 7-ci səhifədə)*

*(əvvəli 6-cı səhifədə)*

Belə yerdə, hökmdar qarşısında işləmək nə qədər çətindir. Dünyanın bütün sənət və hünər sahiblərinə qiymət verənlər buradadır. Burada qalib gəlmək böyük səadət, məğlub olmaq isə ağır müsibətdir. Rəssamların hər ikisi həyəcanla işə başladı.

Onlar bir-birindən xəbərsiz işləməli idilər. Elə işləməli idilər ki, nə bu onun fikrindən istifadə etsin, nə də niyyətini bilsin.

Şahın əmri ilə rəssamları işıqlı və böyük bir otaqda əyləşdirdilər, aradan qalın və ağır pərdə saldılar. Rəssamların hər ikisi mənzərə çəkməyə başladı. Hər ikisi var qüvvəsi ilə qələminin qüdrətini işə saldı. Hər iki sənətkar işini tamamladıqdan sonra tamaşaçılar hazır oldular.

Tamaşaya gələnlərin hamısının üzündə sevinc və maraq vardı, rəssamların qəlbi isə intizarla döyünürdü: "Görəsən necə olacaq? Kimin bəxti güləcək, kiminki ağlayacaq?"

Otağın ortasında asılan pərdəni qaldırdılar. Hər iki rəssamın işi hamını heyran qoydu. Hər iki rəssamın mənzərəsi gözəl, mənalı və qiymətli idi. Hamı əsərlərə "əhsən" dedi. Adamları heyran qoyan başqa bir məsələ idi. Camaat ona heyran idi ki, bir-birindən xəbərsiz olan iki rəssam tamamilə bir-birinin eyni olan lövhələr çəkmişdi. Rum rəssamı nə çəkmişdisə, Çin rəssamı da onu çəkmişdi. Rum rəssamının şəkli nə boyda idisə, Çin rəssamının rəsmi də o boyda idi. Rum rəssamının şəkli nə rəngdə idisə, Çin rəssamının da elə idi. Müxtəsər ki, rəssamlar ayrı-ayrı adamlar idilər. Onlar zövq, hünər, xasiyyət və bilikcə də bir-birlərindən tamam uzaq adamlar idilər. Lakin çəkdikləri şəkil eyni idi, bir-birindən seçilmirdi. Hamı bu hadisəyə heyran qaldı və heç kəs inanmaq istəmədi:

*- Bu ola bilməz.*

*- Möcüzədir!*

*- Burada bir sirr var.*

Rəssamlar isə böyük hünər göstərmiş qəhrəman kimi məğrur-məğrur dayanmışdılar. Doğrudan da, bu işdə sirr var idi. Rum rəssamı bu sirrə heyran qalsa da, deməyə bir sözü yox idi. Padşahın əmri ilə otağın ortasından təkrar pərdə saldılar. Həmişə sirləri örtən pərdə bu dəfə sirrin açılmasına kömək etdi. Pərdə salınan kimi Çin rəssamının şəkli küləyə uğrayan çıraq kimi söndü, şəkil əvəzinə hamar divar göründü. Ancaq pərdə Rum rəssamının çəkdiyi şəklə təfavüt etmədi. Pərdəni təkrar qaldırdılar. Şəkillərin hər ikisi eyni gözəllikdə parladı.

Adamlar yaxına gəlib işin həqiqətini yoxladılar. Gözəl mənzərəni çəkən rumlu idi. Çinli rəssam divara sadəcə sığal vermiş, onu güzgüyə döndərmişdi. Pərdə qalxan kimi rumlunun çəkdiyi şəkil həmin divarda əks olunurmuş.

***Adamlar çinlini töhmətləndirmək istədilər:***

***- Bu nə işdir?***

***- Sənətdir!***

***- Sənət rumludadır ki, gözəl şəkil çəkmişdir.***

***- Divarı güzgüyə döndərmək, sənət aynası etmək bəs nədir?***

Dünyada hünər güzgüsü ilə məşhur olan İsgəndər sənət aynasını da sənət əsəri kimi bəyəndi. O, çinli rəssamın hünərinə də qiymət verdi:

***- O da sənətdir!***

Hər iki sənətkarın hünərinə "əhsən" dedilər.

Rumlunun mənzərə, çinlinin isə sığal ustası olduğunu hamı təsdiq etdi".

Buradan aydın olur ki, İsgəndərin bir hökmdar kimi sənətə, sənət adamına müsbət münasibəti ifadə olunur. Rəhbərin bu sənətə belə münasibətini biz Ulu Öndərimiz Heydər Əliyevin və onun davamçısı olan İlham Əliyevin sənətə və sənət adamına olan münasibətində görürük. Ümummilli liderimizin yazıçılara, rəssamlara, musiqi xadimlərinə, ziyalılara xüsusi qayğı göstərməsi bunun canlı təzahürüdür.

"Göylər adamı" hekayəsi də təlim baxımından maraqlı məzmuna malik olduğundan uzun müddət ədəbiyyat proqramında özünə yer tutmuşdur. Belə ki, əsərin məzmununda müəyyən peşəyə sahib olmaq, peşəni sevərəkdən ona yiyələnmək mühüm problem kimi əsərin əsas ideyasını təşkil edir. Hekayənin əsas obrazı Əşrəfdir, təyyarəçi olmaq arzusundadır. Lakin

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ƏDƏBİYYATDAN TƏLİM MATERİALLARI ARASINDA MİR CƏLALIN YARADICILIQ NÜMUNƏLƏRİNİN YERİ

onun istəyi anası Mehri xanımın ürəyindən deyil. Əşrəf bir tərəfdən anasının könlünə dəymək istəmir, digər tərəfdən istəyindən əl çəkə bilmir. Əşrəfin dostları Fərman və Nüsrət ananı yola gətirməyə çalışırlar. Ana isə fikrindən əl çəkmək istəmir. Fikir aydınlığı üçün aşağıdakı parçaya nəzər salmaq olar:

*"- Yox, bala, - dedi, - nə eləyirsən, elə, ayağını yerdən üzmə! Xatalı peşələr bizə qalmayıb ha? Gəzməyə həvəsin var, get, odur, dəmir yolunda işlə, matros ol, şoferliyə yazıl!*

*Əşrəf anası ilə mübahisə etməyə məcbur oldu:*

*- Necə insaf edib bu sənəti şoferliyə tay tutursan, ana? Mənəm deyən maşinist saatda 50-60 kilometr sürür, 50-60 kilometr təyyarənin qabağında bir*



**Mir Cəlal Azərbaycan Dövlət Universitetinin tələbələri arasında, 1954**

*addım məqamındadır. Araba ilə . avtomobil birdirsə, avtomobil ilə təyyarə də birdir.*

*- Gəmidə işlə!*

*- Ana, göyə çıxmağa qoymursan ki, xatalıdır. Dəniz xatalı deyilmi?*

*Ana etirazında davam etdi:*

*- Yox, yerin, suyun nə xatası?*

*- Qorxağın gəmiçidən nə soruşduğunu eşitmisənmi?*

*- Nə soruşub?*

*- Bir qorxaq gəmiçidən soruşub ki, atan harada ölüb? Gəmiçi deyib: "Dənizdə!". "Baban harada ölüb?" "O da dənizdə boğulub ölüb". Qorxaq deyib: "Bəs qorxmursan, yenə gəmiçilikdən əl çəkmirsən?"*

*Bu misal ananın xoşuna gəldi. Xüsusilə gəmiçiyə verilən suallar lap onun ürəyindən idi:*

*- Qorxaq niyə olsun daha? Kişi haqqını soruşub, yerində soruşub!..*

*Əşrəf anasının sözünü kəsdi:*

*- Gör gəmiçi nə cavab verir.*

*- Versin görək!*

*- Gəmiçi də arif imiş; qorxaqdan soruşur ki, atan harada öldü? "Lap evində, yorğan-döşəkdə!" "Baban harada öldü?" "O da yorğan-döşəkdə!" "Bəs qorxmursan hər gecə yorğan-döşəyə girirsən?"*

*Əşrəf sözünü qurtarıb anasının üzünə baxdı. Anası məsələnin mənasını yaxşı başa düşmüşdü. Əşrəfin niyyətini də anlayırdı. Ancaq inadından dönmək istəmirdi:*

*- Sənə, - dedi, - dil yetrimək çətindir.*

*Əşrəf təyyarəçilik oxuyan yoldaşlarından ikisini yanına salıb evlərinə gətirdi. Onlardan biri Bəhlul kişinin oğlu Fərman, biri də qabaqcıl Nüsrət idi. Fərman Əşrəflə bir küçəli idi. Yaşlarında bir il təfavüt var idi. Əşrəfin anası Balaxanımın oğlu Fərmanı tanımadı. Dünənə qədər bir tikə uşaq saydığı Fərmanı belə yaraşıqlı paltarda görəndə özü də həvəsə gəldi:*

*- Maşallah olsun, bala, - dedi, - nə böyümüsən! Tanımaq olmur. Mən dedim bəs hansı kişidir. Yaşınmaq istədim.*

*Fərman da zarafatcıl oğlan idi.*

*- Əlbət ki, - dedi, - xala, sizlər bizi kişi saymazsınız. Kişinin başında buxara papaq gərək!*

*- Papaqda nə iş var? O, köhnə sözdür. Baş baş olsun!*

*Fərman yavaş-yavaş mətləb üstə keçdi:*

*- Ana, - dedi, - səni təbrik etməyə gəlmişəm.*

*Ananın gözü işıqlandı:*

*- Nə barədə?*

*- O barədə ki, Əşrəfi də bizim məktəbə götürdülər.*

*- Sizin məktəb hansıdır?*

*- Təyyarəçilik.*

*Fərman bunu dedi, əvvəl ananın üzünə, sonra da Əşrəfə baxdı. Əşrəf də ananın üzünə baxdı. Ana başını aşağı salmışdı. Gənclərin sözləşdiyini hiss etmişdi. Nə isə, o da başını qaldırıb Fərmanın üzünə baxdı:*

*- Əşrəf özbaşına iş tutursa, daha mən nə deyim... Mən ona deməmişəmmi, ayrı sənətə getsin?*

*- Bu sən, bu Əşrəf! Sən desən ki, təyyarəçilik məktəbinə getmə, o getməyəcək. Ancaq heç kəs inanmır ki, belə bir oğulun anası elə söz demiş olsun.*

*Ana nə isə demək istəyirdi. Fərman əli ilə işarə edib üzr istədi:*

*- Bağışla, - dedi, - Mehri xala! Bizim məktəbə gələn yüz ərizədən bəlkə beşi qəbul ola, ya olmaya..."*

*Mehri ana təyyarəyə minib göydə gəzdikdən sonra oğlunun təyyarəçi olması ilə fəxr etdi.*

Hazırda mövcud ədəbiyyat proqramında (2003) Mir Cəlal Paşayevin V sinifdə "Ərik ağacı" hekayəsinin tədrisi nəzərdə tutulur. Hekayənin tədrisi ilə əlaqədar aşağıdakı tələblər irəli sürülür:

Əsərdə xatirə üslubu. Gələcək nəslə yadigar qoyan insanın ölməzliyi.

Hekayənin məzmununda bu gün də aktual olan bir problemə - təbiətə, bitkiyə, gözəlliyə qayğı ideyası irəli sürülür. Aydın olur ki, çərdəkdən göyərmiş bir tingin qayğı nəticəsində yaxşı bar verən nəhəng ərik ağacı hamının diqqətini cəlb edir. Onu ting şəklində qoyan adamın iyirmi ildən sonra ərik ağacına baxdıqda təəccübləndiyi hekayədə öz bədii ifadəsini tapır. Bütün bunlar məktəbin bağbanı Nəbi dayının qayğısının nəticəsi kimi verilir.

Ümumiyyətlə, Mir Cəlal yaradıcılığı, yuxarıda deyildiyi kimi, təlim baxımından olduqca faydalıdır. Onun digər hekayələri də proqrama, dərsliyə salınmalı əsərlərdir.

*Asya BƏKİROVA,*
*Pedaqoji elmlər namizədi, dosent*



**Mir Cəlal (2-ci sırada soldan ikinci) professor Məmməd Cəfərlə tələbələr arasında, 1950**